# Avtomatlaşdırılmış Bəyannamə Tərtibi  (ABT)

Avtomatlaşdırılmış Bəyannamə Tərtibi  **(ABT)** proqram təminatı vergi ödəyicisinin əvvəlki vergi dövrü üzrə bəyannamə məlumatlarından istifadə edilməklə cari vergi dövrü üçün bəyannamənin əvvəlcədən avtomatlaşdırılmış tərtib edilməsi imkanı yaradır.

Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) üçün istifadəçi "İnternet Vergi İdarəsinin" Avtomatlaşdırılmış Bəyannamə Tərtibi  (ABT) menyusuna daxil olur:




Şəkil 1. Avtomatlaşdırılmış bəyannamə tərtibi alt-menyusu

# I. “Yol vergisinin bəyannaməsi”nin və “Torpaq vergisinin bəyannaməsi”nin avtomatlaşdırılmış tərtibi.

Avtomatlaşdırılmış Bəyannamə Tərtibi (ABT) menyusu vasitəsilə **“Yol vergisinin bəyannaməsi”nin və “Torpaq vergisinin bəyannaməsi”nin** cari bəyannamələrinin əvvəlki dövr bəyannamə göstəriciləri əsasında avtomatlaşdırılmış tərtib və on-line təqdim edilməsi mümkündür.

Bunun üçün istifadəçi müvafiq **vergi növü üzrə bəyannaməni işarələməklə** bəyannamə hazırlanacaq **dövrü qeyd etməli** və **“Hazırla” düyməsini** sıxmalıdır.




Şəkil 2. Avtomatlaşdırılmış bəyannamə tərtibi pəncərəsi

Vergi ödəyicisinin **əvvəlki dövr** üzrə bazada **bəyannaməsi mövcud olmadıqda** ekranda Şəkil 3-də qeyd olunan **xəbərdarlıq ismarıcı** əks olunur:




Şəkil 3. Əvvəlki dövrün bəyannaməsi tapılmadı

Vergi ödəyicisinin bazada əvvəlki dövr üzrə **bəyannaməsi mövcud olduğu halda isə** sistem tərəfindən qeyd olunan dövrə Avtomatlaşdırılmış olaraq **bəyannamə tərtib olunur** və bəyannamə “**təsdiq gözləyir” mərhələsində** əks olunur. Bu mərhələdə təsdiq gözləyən **bəyannaməni “Təsdiq” və ya “Ləğv” etmək,** eyni zamanda **bəyannamə paketini endirərək** BTP proqramı vasitəsilə **bəyannaməyə lazımi dəyişikliklər etmək** mümkündür.

Əlavə olaraq **təsdiq gözləmə mərhələsində** olan bəyannamə(lərin) sətirlərinə **"Vergi məbləği"** sütunu əlavə edilmişdir. Bu xanada **Avtomatlaşdırılmış** şəkildə tərtib edilmiş və təqdim olunma gözləyən **bəyannamə üzrə hesablanmış vergi məbləğinin** cəmi əks olunur.




Şəkil 4. Təsdiqlənəcək bəyannamə siyahısı, "Vergi Məbləği" sütunu.

Vergi ödəyicisi **Avtomatlaşdırılmış** şəkildə tərtib edilmiş və təqdim olunma gözləyən **bəyannamə üzrə hesablanmış vergi məbləği** ilə razı olduğu təqdirdə **"Təsdiqlə"** düyməsini sıxmaqla bəyannaməni vergi orqanına göndərir.

**Avtomatlaşdırılmış** şəkildə tərtib edilmiş və təqdim olunma gözləyən **bəyannamə** hər hansı səbəbdən vergi ödəyicisini qane etmədikdə **"Ləğv et"** düyməsini sıxmaqla bəyannamə ləğv edilir.

---